**Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinin**
**2022-ci il üzrə fəaliyyətinə dair**
**HESABATI**

Ölkəmizin hüquq sisteminin təkmilləşdirilməsi istiqamətində ardıcıl aparılan islahatların davamı kimi beynəlxalq təcrübə nəzərə alınmaqla hüququn müxtəlif sahələri üzrə islahatların həyata keçirilməsi, normayaratma fəaliyyətinin keyfiyyətinin yüksəldilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 19 may tarixli 1685 nömrəli Fərmanı ilə Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi (bundan sonra — Mərkəz) yaradılmışdır. Mərkəz publik hüquqi şəxs olmaqla, normayaratma fəaliyyətinin keyfiyyətinin yüksəldilməsi, dövlət orqanları (qurumları) əməkdaşlarının hüquq normalarının tətbiqi sahəsində bilik, bacarıq və səriştələrinin inkişaf etdirilməsi, hüquqi maarifləndirmə, hüquqi ekspertizanın aparılması və hüquqi tənzimləmənin təsirinin qiymətləndirilməsi, habelə qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla Azərbaycan Respublikasında hüquqi islahatların həyata keçirilməsinə dair təkliflər hazırlanması və bunlarla bağlı işlərin səmərəli əlaqələndirilməsi sahəsində yuxarıda adıçəkilən Fərmanla təsdiq edilmiş “Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinin Nizamnaməsi” (bundan sonra — Nizamnamə) əsasında fəaliyyət göstərir.

Mərkəzin səmərəli fəaliyyəti üçün normayaratma sahəsi üzrə yüksək ixtisaslı mütəxəssislərin cəlb edilməsi zərurəti nəzərə alınaraq, işə qəbul prosesinin şəffaflığının təmin edilməsi və mümkün qədər çox namizədin cəlb edilməsi üçün iş axtaranların daha çox istifadə etdiyi internet resurslarında müvafiq müsahibə elanları yerləşdirilmişdir. Mərkəzə işə qəbulla əlaqədar 300-dən artıq müraciət anketi daxil olmuş, onlardan 58 müraciətçi müsabiqənin birinci mərhələsinə dəvət edilmiş, ikinci mərhələdə iştirak hüququ qazanmış 19 namizəddən 8-i seçilərək yekunda işə qəbul edilmişdir.

Mərkəzin fəaliyyətinin təşkil edilməsi məqsədilə Mərkəzin şöbələrinin əsasnamələri və işçilərin vəzifə təlimatları hazırlanmış, Mərkəzin Nizamnaməsi rus və ingilis dillərinə tərcümə edilmiş, dövlət orqanlarına (qurumlarına) göstəriləcək xidmətlər üzrə nümunəvi xidmət müqaviləsinin layihəsi hazırlanmış, Mərkəz tərəfindən göstərilən xidmətlərin dəyəri və dövlət orqanları (qurumları) tərəfindən ödənilməsi mexanizmi ilə bağlı təhlillər aparılmışdır. Öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını təmin etmək məqsədilə Mərkəzin internet saytının yaradılması istiqamətində işlər görülərək saytın azərbaycan, rus və ingilis dillərində ilkin test (beta) versiyası hazırlanmış, habelə aidiyyəti dövlət orqanı ilə danışıqlar aparılaraq Mərkəzin əməkdaşlarına “heqt.gov.az” adlı domenə uyğun elektron poçt qutularının ayrılması təmin edilmişdir.

Mərkəzin işçi heyəti formalaşdırıldığı gündən Nizamnaməsi ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun şəkildə vəzifələrinin icrasına başlamış, öz fəaliyyətinin təşkili, maddi-texniki bazasının formalaşdırılması istiqamətində işlər görmüş, normativ hüquqi aktların layihələrinin hazırlanması və hüquqi ekspertizasının aparılmasında iştirak etmişdir. Aparılmış hüquqi ekspertiza çərçivəsində Mərkəzə təqdim edilmiş müxtəlif qanunvericilik aktlarının layihələrinin “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununa uyğunlaşdırılması, habelə qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla təkmilləşdirilməsi istiqamətində tədbirlər görülmüşdür.

Sağlam rəqabət mühitinin təmin edilməsini, azad sahibkarlığın dəstəklənməsini hədəfləyən "Azərbaycan Respublikasının Rəqabət Məcəlləsi"nin layihəsi mütərəqqi beynəlxalq təcrübə və rəqabət hüququnda mövcud müasir yanaşmalar nəzərə alınmaqla, Mərkəzdə hüquqi ekspertizadan keçirilmişdir. Hüquqi ekspertizanın aparılması və layihəyə dair rəy verilməsi ilə əlaqədar Avropa İttifaqının, o cümlədən Almaniyanın, Litvanın, Macarıstanın, Çexiyanın, Böyük Britaniyanın, ABŞ-ın və Rusiya Federasiyasının rəqabət qanunvericiliyi araşdırılmışdır. Adıçəkilən layihə ilə əlaqədar Mərkəzin rəy və təklifləri nəzərə alınmaqla aidiyyəti dövlət orqanlarının nümayəndələri ilə uzunmüdətli və intensiv müzakirələr aparılmışdır.

Azərbaycan Respublikasının Mülki Məcəlləsinin sahibkarlıq fəaliyyəti ilə bağlı müddəalarını ("Hüquqi şəxslər" və "Borc" fəsillərini) yeni redaksiyada verən qanun layihələri mövcud qanunvericilikdəki problemlər və müxtəlif qabaqcıl dövlətlərin təcrübəsi nəzərə alınmaqla hüquqi ekspertizadan keçirilmişdir. "Borc" fəsli ilə bağlı dəyişiklikləri nəzərdə tutan qanun layihəsi Azərbaycan Respublikasının Mərkəzi Bankı ilə müfəssəl müzakirə edilmişdir.

Müasir qlobal çağırışlara uyğun innovasiya ekosisteminin formalaşdırılması və innovativ sahibkarlığın stimullaşdırılması məqsədilə hazırlanmış "İnnovasiya fəaliyyəti haqqında" qanun layihəsinin, habelə "Kosmik fəaliyyət haqqında" qanun layihəsinin, "Xaricdə yaşayan soydaşlar və diaspor təşkilatları haqqında" qanun layihəsinin, Azərbaycan Respublikasının "Gömrük tarifi haqqında", "Elektroenergetika haqqında", "Su təchizatı və tullantı suları haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında", "Qaz təchizatı haqqında" qanunlarında dəyişiklik edilməsi barədə qanun layihələrinin, eyni zamanda Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsində Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Gömrük Məcəlləsində, Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində, Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişikliklərə dair çoxsaylı qanun layihələrinin hüquqi ekspertizası keçirilərək onlara dair rəy verilmişdir.

Bundan əlavə, "Media haqqında" Azərbaycan Respublikasının Qanununun uyğunlaşdırılması ilə əlaqədar 100-dən çox qanuna dəyişikliklər edilməsini nəzərdə tutan qanun layihələri, həmçinin "Dövlət-özəl tərəfdaşlığı haqqında" Azərbaycan Respublikasının Qanunu, "Dövlət müəssisəsinin səhmdar cəmiyyətinə çevrilməsinin qaydaları haqqında Əsasnamə"nin təsdiq edilməsi haqqında", "Maliyyə-sənaye qrupları haqqında" və "Torpaq icarəsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 5 noyabr tarixli 621-VIQD nömrəli Qanunu da daxil olmaqla, bir sıra qanunların tətbiqi barədə fərman layihələri və bəzi mövcud fərmanlara dəyişiklikləri nəzərdə tutan fərman layihələri hazırlanmışdır.

Həmçinin Azərbaycan Respublikası Prezidentinin Fərmanı və Nazirlər Kabinetinin qərarı layihələrinə rəylərin verilməsi təmin edilmişdir. Belə ki, "Ümumvətəndaş, xidməti və diplomatik pasportların təsvirinin, spesifikasiyasının və nümunələrinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 17 iyul tarixli 687 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin Fərmanı layihəsinə, "Bakı şəhərinin inzibati ərazisində nəqliyyat sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında"

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 7 fevral tarixli 1586 nömrəli Fərmanının 3-cü hissəsinin icrası ilə əlaqədar hazırlanmış Fərman layihəsinə, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının ştatdankənar (fəxri) konsulu haqqında" Əsasnamə barədə" 1997-ci il 21 aprel tarixli 575 nömrəli və "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikası Qanununun icrası ilə bağlı əlavə tədbirlər barədə" 2000-ci il 23 dekabr tarixli 432 nömrəli fərmanlarında, "2011-2020-ci illərdə Azərbaycan Respublikasında qiymətli kağızlar bazarının inkişafı" Dövlət Proqramının təsdiq edilməsi haqqında" 2011-ci il 16 may tarixli 1504 nömrəli Sərəncamında dəyişiklik edilməsi və "Azərbaycan Respublikası Mülki Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 386 nömrəli Fərmanının icrasının təmin edilməsi ilə əlaqədar bəzi tədbirlər haqqında" 2003-cü il 27 sentyabr tarixli 926 nömrəli Fərmanının ləğv edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin Fərmanı layihəsinə və "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 15 sentyabr tarixli 353 nömrəli Qərarı ilə təsdiq edilmiş "Turizm sahəsində layihələrin qrant maliyyələşdirilməsi üzrə müsabiqələrin keçirilməsi Qaydası"nda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarı layihəsinə dair rəy verilmişdir. Qeyd edilənlərlə yanaşı, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulmuş cəzaların optimallaşdırılması məqsədilə təqdim edilmiş təkliflərin təhlili ilə bağlı, o cümlədən Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarlarında Azərbaycan Respublikası Milli Məclisinə verilmiş tövsiyələrin icra vəziyyəti ilə bağlı arayışlar tərtib edilmişdir. Həmçinin, Mərkəz tərəfindən ayrı-ayrı qanunvericilik aktlarında aktual məsələlərlə bağlı hüquqi boşluqların və kolliziyaların aradan qaldırılması ilə bağlı hüquqi araşdırma aparılmış və müvafiq təkliflər hazırlanmışdır.

Həmçinin "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Konvensiyanın 16 saylı Protokolunun və onun təsdiq edilməsi haqqında qanun layihəsinin, bir sıra hökümətlərarası sazişlərin layihələrinin, Azərbaycan Respublikasının Albaniya Respublikasında (Tirana şəhərində), İsrail Dövlətində (Təl-Əviv şəhərində), Keniya Respublikasında (Nayrobi şəhərində) səfirliklərinin, Fələstin Dövlətində Təmsilçilik Ofisinin, BMT-nin Nayrobi şəhərindəki bölməsində Daimi Nümayəndəliyinin təsis edilməsi haqqında qanun layihələrinin məcburi hüquqi ekspertizası aparılmış, onların fəaliyyətinin təmin edilməsi haqqında sərəncam layihələri, Azərbaycan Respublikasının şəhərləri ilə xarici ölkələrin şəhərlərinin qardaşlaşması barədə bağlanılan anlaşma memorandumunun nümunəvi forması hazırlanmışdır.

Heydər Əliyev Mərkəzinin publik hüquqi şəxsə çevrilmə yolu ilə yenidən təşkil edilməsini nəzərdə tutan "Heydər Əliyev Mərkəzinin fəaliyyətinin təkmilləşdirilməsi və "Heydər Əliyev Mərkəzinin Əsasnaməsi"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 8 oktyabr tarixli 709 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin Fərmanının layihəsi, normativ hüquqi aktların uyğunluğunun təmin edilməsi ilə bağlı digər normativ hüquqi aktların layihələri və normayaratma orqanına təqdim edilməsi üçün tələb olunan sənədlər hazırlanmış, həmçinin Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev ili" elan edilməsi ilə əlaqədar tədbirlər planı hazırlanaraq Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına (bundan sonra — Prezident Administrasiyası) təqdim edilmişdir.

“Bakı Dövlət Universitetinin nəzdində Hüquq İnstitutunun yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanı layihəsi və “Bakı Dövlət Universitetinin nəzdində Hüquq İnstitutunun Nizamnaməsi”nin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Qərarı layihəsi ilə əlaqədar həmin Universitetin Hüquq fakültəsi ilə müzakirələr aparılmış, layihənin hüquqi ekspertizasının aparılması və təkmilləşdirilməsi təmin edilmişdir. Yekun normativ hüquqi akt layihələri baxılması üçün Prezident Administrasiyasına təqdim edilmişdir.

Normativ hüquqi akt layihələrinin hazırlanması zamanı vahid normayaratma texnikasının təmin edilməsi yolu ilə normayaratma fəaliyyətinin keyfiyyətinin yüksəldilməsi məqsədilə "Normativ hüquqi akt layihələrinin hazırlanmasına dair Təlimat", "Normayaratma texnikası Qaydaları" və “Normativ hüquqi aktın qəbul edilməsi zərurətinin əsaslandırılması sənədinin tərtib edilməsi Qaydaları”nın layihələri hazırlanmış, habelə normativ hüquqi bazanın monitorinqinin və normativ hüquqi tənzimləmənin təsirinin qiymətləndirilməsinin aparılması üzrə müvafiq təlimatların ilkin layihələri tərtib edilmişdir.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sorğusu üzrə “Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinin, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 372.1, 373.1, 373.3, 551.2.1 və 553.1.1-ci maddələri baxımından əlaqəli şəkildə şərh edilməsinə dair” konstitusiya işi ilə əlaqədar müvafiq rəyin verilməsi təmin edilmişdir.

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sorğusu əsasında "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununun 15-21.1.4-cü maddəsinə uyğun olaraq, icbari tibbi sığorta fondunun vəsaiti hesabına “Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi” publik hüquqi şəxsinin tabeliyindəki dövlət səhiyyə sisteminə daxil olan tibb müəssisələrinə dotasiya verilməsinin mümkünlüyü ilə bağlı rəyin verilməsi təmin olunmuşdur.

Mərkəzin fəaliyyət istiqamətləri ilə oxşarlıq təşkil edən xarici ölkələrin müvafiq qurumlarının statusu, funksiyaları araşdırılmış və onlarla mümkün beynəlxalq əməkdaşlığın perspektivləri nəzərdən keçirilmişdir. Eyni zamanda Avropa İttifaqı Qonşuluq Siyasəti çərçivəsində Tvinninq proqramına, habelə Mərkəzin əməkdaşlarının normayaratma ilə əlaqədar praktiki bilik və vərdişlərinin artırılması məqsədilə xarici səfərlərin, mütəxəssis missiyalarının təşkil olunması üçün TAİEX proqramına müraciət imkanları öyrənilmişdir.

Mərkəzin əməkdaşlarının normayaratma fəaliyyəti sahəsində bilik və bacarıqlarının təkmilləşdirilməsi üçün Mərkəzin İcraçı direktorunun 10 noyabr 2022-ci tarixli E-1 nömrəli əmrinə əsasən, Mərkəzin 3 əməkdaşı 10 noyabr 2022-ci il tarixindən 30 dekabr 2022-ci il tarixinədək Prezident Administrasiyasına ezam edilmişdir. Bununla yanaşı qeyd olunan dövr ərzində Prezident Administrasiyasının yuxarıda adıçəkilən şöbəsinin əməkdaşları tərəfindən Mərkəzin əməkdaşlarına normayaratma fəaliyyəti sahəsində müxtəlif mövzular üzrə intensiv təlimlər keçirilmişdir.

Mərkəzin və onun tabeliyindəki Hüquq və İnsan Haqları İnstitutunun birgə təşkilatçılığı ilə 10 dekabr — Ümumdünya İnsan Hüquqları Gününə həsr olunmuş dəyirmi masa təşkil edilmişdir. Tədbirdə ölkəmizin müxtəlif ali təhsil ocaqlarından insan hüquqları sahəsində mütəxəssislər, Azərbaycan Respublikası Milli Məclisinin, Prezident Administrasiyasının, Konstitusiya Məhkəməsinin, Baş Prokurorluğun, İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsman) Aparatının, Ədliyyə Nazirliyinin, Daxili İşlər Nazirliyinin və digər dövlət

orqanlarının, Vəkillər Kollegiyasının, Mediasiya Şurasının, habelə bir sıra aidiyyəti yerli və beynəlxalq təşkilatların nümayəndələri iştirak etmişdir. Tədbir zamanı insan hüquqlarının müdafiəsi sahəsində Mərkəzin və Hüquq və İnsan Haqları İnstitutunun rolu barədə təqdimat keçirilmiş, son bir ildə ölkəmizdə insan hüquqlarının müdafiəsi ilə bağlı qəbul edilmiş hüquqi aktlar və görülmüş işlər, bu sahədə beynəlxalq tendensiyalar və aktual məsələlər, habelə insan hüquqları sahəsində fəaliyyət göstərən qurumların fəaliyyətinin əlaqələndirilməsi məsələləri müzakirə edilmiş və səmərəli fikir mübadiləsi aparılmışdir.

Həmçinin, hesabat dövrü ərzində Mərkəzin rəhbərliyi Baş Prokurorluq tərəfindən keçirilmiş “İnsan hüquqlarının əsas təminatları” mövzusunda konfransda, Ədliyyə Nazirliyi və Bakı Dövlət Universitetinin birgə təşkil etdiyi Beynəlxalq İnsan Hüquqları Gününə həsr olunmuş tədbirdə, BMT-nin Azərbaycan nümayəndəliyi tərəfindən təşkil edilmiş Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 75 illiyinə həsr olunmuş tədbirdə, Avropa Şurasının təşkilatçısı olduğu “Avropa Məhkəməsi qərarlarının Azərbaycan tərəfindən icrasının gücləndirilməsinə dəstək” layihəsi çərçivəsində keçirilmiş konfransda, ADA Universitetinin Hüquq Fakültəsinin açılış mərasimində, Bakı Dövlət Universitetinin Hüquq Fakültəsinin fəaliyyətinin təkmilləşdirilməsi ilə əlaqədar konfransda, Vəkillər Kollegiyası tərəfindən arbitraj hüququ sahəsində təşkil olunmuş təqdimat mərasimində iştirak etmişdir. Bundan başqa Vəkillər Kollegiyası və BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarının nümayəndəliyi ilə Mərkəz arasında görüşlər keçirilərək əməkdaşlıq perspektivləri barədə müzakirələr aparılmışdır.

Bundan başqa, Mərkəzin İcraçı direktoru Azərbaycan Respublikası Baş prokuroru yanında Elmi-Məsləhət Şurasının üzvü seçilmiş və həmin Şuranın 2022-ci il üzrə yekun iclasında iştirak etmişdir.

BMT-nin İnkişaf Proqramının (UNDP) Azərbaycandakı nümayəndəliyinin təşkilatçılığı ilə keçirilmiş “Biznes və İnsan Hüquqları” adlı təlimlərdə, habelə insan hüquqlarına əsaslanan yanaşmanın aktuallaşdırılması və süni intellekt və inkişaf edən texnologiyalar dövründə fərdi məlumatların qorunması məsələləri ilə bağlı keçirilmiş təlimlərdə iştirak edərək qeyd edilən mövzularda yeni biliklər əldə etmişdirlər. Həmin təlimlərdə iştirak etmiş Mərkəzin əməkdaşları tərəfindən təlimlər barədə geniş hesabatlar tərtib edilərək əldə edilmiş biliklərin Mərkəzin digər əməkdaşları ilə bölüşdürülməsi təmin edilmişdir.

Mərkəzdə Tender Komissiyası yaradılmış, Mərkəzin maddi-texniki bazasının formalaşdırılması ilə bağlı ehtiyaclar müəyyənləşdirilmiş, qanunvericiliyə uyğun kotirovka sorğuları keçirilmiş, Mərkəz üçün dəftərxana ləvazimatları, informasiya və kommunikasiya avadanlıqları, habelə nəqliyyat vasitəsi alınmış, Mərkəz inzibati bina ilə təmin olunanadək onun müvəqqəti yerləşməsi üçün icarə müqaviləsi bağlanmışdır.

Hesabat dövrü ərzində mərkəzi və yerli icra hakimiyyəti orqanlarından, qurumlardan və vətəndaşlardan Mərkəzə ümumilikdə 37 müraciət daxil olmuş və həmin müraciətlər vətəndaşların müraciətləri haqqında qanunvericiliyə müvafiq olaraq cavablandırılmışdır.

**Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi**